**Əhməd Rəhimov**

# İKİ QIZ

**AZƏRBAYCAN**
**UŞAQ VƏ GƏNCLƏR ƏDƏBİYYATI NƏŞRİYYATI**
**BAKI-1958**



# İKİ QIZ

Bir aya yaxın idi ki, Ayparagil yeni mənzilə köçmüşdülər. Qız buraya köçəndə ağlayıb anasına demişdi: «Bəs mən orda kiminlə oynayacağam? Axı mən darıxacağam». Ona rəfiqələrindən, köhnə də olsa doğma həyətlərindən, qonşu uşaqlardan ayrılmaq çox ağır gəlirdi. Ata-anası isə onu inandırırdılar ki, bura nə qədər onun üçün yaxşı olsa da darkeşlikdir. Amma təzə evləri genişdir, orda da çoxlu uşaq var, o, özünə yeni dostlar tapacaqdır!

Doğrudan da belə oldu. Qonşu mənzildə yaşayan Yeganəni görən kimi Ayparanın bütün şübhələri dağıldı. O, özü yaşlı rəfiqə tapmasına çox sevindi...

Günlər ötdükcə qızların dostluğu da möhkəmlənirdi. Yaz başlanmışdı. İndi onlar tez-tez görüşür, saatlarla birlikdə oynayırdılar.

Bir səhər Ayna xala bazara getməyə hazırlaşanda Aypara yalvardı:

— Anacan, tək evdə darıxacağam. Qoy sən gəlincə Yeganəgildə oynayım.

Ana əvvəl razılaşmaq istəmədi:

— Bəs evdə kim qalsın?

— Qapını bağlayaq, açarı da Ədilə xalaya verək,—deyə Aypara tez çıxış yolu tapdı.

Ayna xala açarı Ədilə xalaya verdi:

— Ədilə xanım, mən bazardan gəlincə, olarmı, Aypara sizdə qalsın?

— Bəli, bu nə sözdür, əlbəttə qalsın. Gəl qızım, gəl Yeganə ilə oyna.—O, Ayparanın başını sığalladı,—Amma, qızım, Zeynəb nənə xəstələnib, bir az səssiz-küysüz oynayarsınız, yaxşımı?—deyə ona tapşırdı.

— Baş üstə, xala,—deyə Aypara söz verdi.

Qara qıvrım hörüklərinin uclarına enli ağ lent bağlanmış səkkiz yaşlı Yeganə bütün oyuncaqlarını, hətta pəncərədə oturtduğu gəlinciyini belə Ayparaya gətirdi. Yeganə oyuncaqlarını daşıdıqca Aypara: «Bundan məndə də var, bu yoxdur» deyə öz şeyləri ilə rəfiqəsinin oyuncaqlarını müqayisə edirdi.

Uzun müddət qızlar səssizcə gəlin evi bəzəyib oynadılar.

Nəhayət, Aypara oyuncaqlarla əlləşməkdən yoruldu.

— Oynamırsan?—deyə Yeganə narazı halda burnunu qırışdırdı.

— Yox.

— Niyə?

— Elə-belə. İstəmirəm. Gildən cürbəcür şeylər düzəltmək istəyirəm. Gəlin-Gəlin oynamaqdan bu yaxşıdır.

Yeganə öz-özünə fikirləşdi: Aypara düz deyir, gəlin-gəlin oynamaqdan bu yaxşıdır. Çünki bizə də əmək dərsində zənbil qayırmağı öyrədirlər.

Yarım saatdan artıq idi ki, qızların başı gil oynuna bərk qarışmışdı. Aypara cürbəcür rəngli gillərdən az-az götürür, hamarlayır, sonra gah

yumru, gah armuda bənzər, gah da qısa çöpə oxşar hissələr hazırlayırdı. Onun əlləri çevik işləyirdi.

Qızların səsini eşitməyən Yeganənin anası mətbəxdən gəlib onların başı üstündə durdu.

— Qızlar, nə yaxşı səssiz oynayırsınız? Deyin görüm nə qayırırsınız ki, səsiniz çıxmır?

— Ana, gil düzəldirik,—deyə Yeganə cəld dilləndi.

— Gil yox, gildən cürbəcür şeylər düzəldirik,—deyə Aypara qonur parlaq gözlərini Yeganəyə dikib əlindəki işi dayandırmadan yaşlılara məxsus bir əda ilə onun səhvini düzəltdi.

— Nə olsun?

— Atam deyir ki, adam danışığına fikir verməlidir, yoxsa çoxlu səhv buraxar.

Ədilə xala Ayparanın başını mehribanlıqla qucaqladı. Yeganə o saat qaşqabağını tökdü.

— A mənim paxıl qızım, gəl görüm,—deyə anası onu da qucaqladı.

Ədilə xala qızların gildən düzəltdikləri şeylərə baxdı.

— Bu fili hansınız düzəltdiniz?

Yeganə dedi:

— Bax, bu zənbili, pişiyi, fili, bir də bu ağacı Aypara düzəltdi.

Yerdə bir əyri oyuncaq da vardı. O, nə kasaya, nə də fincana bənzəyirdi.

— Bəs o nədir? Onu kim düzəldib?

— Mən,—deyə Yeganə alçaqdan mızıldandı. O çox çalışmış, amma bir şey düzəldə bilməmişdi. İndi deyəsən qayırdığı oyuncağına görə utanırdı.

Ana narazılıqla başını yırğaladı.

— Bir görürsən? Bu da sən boydadır. Gör nə qəşəng şeylər düzəldir.

Yeganə acıqlı-acıqlı Ayparaya baxdı, sonra nə fikirləşdisə quş dimdiyi üçün düzəltdiyi sarı rəngli gili dartıb onun əlindən aldı və əzdi.

— Ver bura, bəsdir, gilim qurtarır.

Aypara qıpqırmızı qızardı, çevrilib Ədilə xalaya baxdı, amma bir söz demədi.

— Nə yaman paxılsan,—deyə ana hirslənib Yeganəyə çığırdı.—Ver gili qıza, qoy xətri istədiyi şeyləri düzəltsin.

— Vermirəm,—deyə Yeganə üz-gözünü turşutdu, əlindəki gili möhkəmcə sıxıb dalında gizlətdi.

Ədilə xala qızına gözlərini ağardıb, barmağıyla hədələdi:

— Yaxşı, indi ki, mənim sözümə baxmırsan, qoy atan gəlsin, deyəcəyəm ki, sən necə pis qızsan, özünü də döydürəcəyəm.

Yeganəyə söz kar eləmədi. O, düşündü ki, atam məni nə vaxt döyüb ki, indi də döysün. Anam həmişə belə deyir. Bir də atamın gəlməyinə hələ gör neçə saat var? O vaxtacan anamın yadından çıxacaq.

— Bay səni, az qala yadımdan çıxmışdı, qazanım daşacaqdı,—deyə Ədilə xala birdən dönüb mətbəxə getdi. Bir az sonra o bufetdən nə isə götürmək istəyəndə Aypara ona yanaşdı:

— Xala, nə olar ki, bizim qapımızı açın. Mən evə getmək istəyirəm.

— Evinizi neyləyirsən, qızım, burda Yeganə ilə oynasana.

Pərtləşmiş Aypara doluxsundu, başını aşağı salıb barmaqlarını çəkişdirməyə başladı.

— Öz gillərimi gətirmək istəyirəm.

— Heç utanırsan, Yeganə?—deyə Ədilə xala divanın üstündə oturub gəlinciyini yatırdan qızına acıqlandı:—Adam da qonağı küsdürər?

Yeganə çiyinlərini çəkdi.

Ədilə xala Ayparanın könlünü almaq üçün kitab şkafından təzə bir şəkil dəftəri, bir də rəngli karandaş qutusunu götürüb qıza uzatdı:

—Al, qızım,—dedi,—otur stolun yanında şəkil çək.

Aypara dəftəri açdı. Bir az düşündü: görəsən nə çəksə yaxşıdır? Külqabı? Yox o pisdir! O, qara karandaşı götürdü. Ucu yeyilib qalınlaşmışdı. Belə də karandaş saxlayarlar? Aypara qalın dodaqlarını büzdü. Qaçıb Ədilə xaladan qələmyonan istədi. Elə ki, qələmyonanı aldı,

əvvəlcə oturub hamısının ucunu bir-bir yondu, hamarladı. Sonra şəkil çəkməyə başladı.

Yeganə yerində qurçuxur, ucadan laylay çalır, arabir də gözaltı Ayparaya baxırdı. «Nə çəkir görəsən? Anam da mənim hər şeyimi ona verir. Gedib baxacağam, görüm nə çəkir? Birdən elə bilər ki, mən ona yalvarıram? Əh, nə olsun ki, o özü mənə yalvarır, mənim karandaşlarımla çəkir».

Yeganə divandan düşüb stola yanaşdı. Amma özünü elə tutdu ki, guya o, heç Ayparanın çəkdiyi şəklə baxmır. Özü üçün elə-belə stolun ətrafına fırlanır, gəlinciyini yatırdır. Axı, qardaşı Etibarı anası bu cür yatırdır. O yana, bu yana gedə-gedə.

Aypara yaşıl karandaşla nəyi isə rəngləyib qurtardı. Başını yana əyib şəklə uzaqdan baxdı. Sonra mavi rəngli karandaşı götürdü. Ayparanın belə sakitcə şəkil çəkməsi Yeganəni lap cinlədirdi. «Ora bax, elə işlədir ki, güya özününküdür. İndi gedib əlindən alacağam». Bu fikirlə Yeganə anasını səslədi:

— Ana!

— ...

—Ana, bura bax!..

Bu dəfə Yeganə lap ucadan çağırdı. Ədilə xala tələsik mətbəxdən gəlib astadan dilləndi:

— Nədir, ay qız, niyə belə ucadan çığırırsan, bilmirsən nənən xəstədir, uşaq da yatır. Evi başına nə götürmüsən? Qoy işimi görüm.

— Ana, mən də şəkil çəkmək istəyirəm. Ədilə xala şkafdan işlənib götükləri qalan rəngli karandaşları gətirdi: Yeganə onlara yaxın durmadı.

— Mən o təzələri istəyirəm.

— Gəl otur yanımda, sən də çək. İkimiz də işlədək.

Ayparanın onu dindirdiyini görən Yeganə sevindi və tələsik rəsm dəftərini gətirib stolda şəkil çəkmək üçün özünə yer elədi. Bir gör Aypara nə çəkib? Yeganə heyrətlə içini çəkdi.

— Bu dovşanı sən çəkdin?

— Əlbəttə mən çəkdim.

— Ağzında da kök yeyir. Bunu çəkməyi sənə kim öyrədib?

— Əh, bunda nə var ki. Bunu mən çoxdan çəkə bilirdim. Hələ bağçaya gedəndən. Bəs sən bilmirsən?

— Bilirəm,—deyə Yeganə lovğalandı.

— Çək görüm.

— Çəkərəm,—Sonra Yeganə Ayparanın çəkdiyi ağaclara baxıb dedi:—Nə gözəl ağaclardır. Hamısı da yaşıl.

— Əh, ağac çəkmək dovşandan da asandır,—deyə Aypara qürrələndi.—Əvvəl kötüyünü, sonra budaqlarını, lap axırda da yarpaqlarını çəkirsən, bu cür...

— Hə, hə, bildim,—deyə Yeganə Ayparanın əlindən karandaşı dartıb aldı. Aypara ufuldayıb barmağını ağzına apardı. Yeganə dırnağı ilə onun barmağını cızmışdı.

— Dırnağını niyə tutmursan? Elə bil pişiksən, adamı cırmaqlayırsan.—Aypara qonur iri gözlərini geniş açıb burnunun altında mızıldandı.

Yeganə çiyinlərini çəkdi.

— Neyniyim, anam tutmur da.

— Özün kəs, yekə qızsan, amma dırnağını da tuta bilmirsən.

Yeganə Ayparanın sözlərini eşitmirmiş kimi başını əyib şəkil çəkməyə başladı. «Bəs Aypara deyir ki, ağac çəkmək asandır, hardan asandır, heç bu Aypara çəkən ağaca oxşamır. Cızmaqaraya oxşayır», deyə Yeganə tez-tez gözünü Ayparanın çəkdiyi ağac şəklinə zilləyir və öz-özünə fikirləşirdi.

İşin qızğın vaxtında qoxudan yenicə oyanmış balaca Etibar kiçik əllərilə divarı, stulu tuta-tuta onların yanına gəldi. O, totuq əlini qızların əllərindəki karandaşlara tuşlayıb çığırmağa başladı:

— hı... hı...

Aypara cəld əlindəki karandaşı gizlətdi. Yegana isə Etibara acıqlandı:

— Get burdan!

Uşaq dodaqlarını büzüb ağlamağa başladı və yenə də karandaşı istəməyədə davam elədi,

— İh... ih... ih...

— Ana, gəl götür bunu,—deyə Yeganə bərkdən qışqırıb anasını haraylamağa başladı.

— A bala, bəs mənim işimi kim görsün? Mətbəx dolu qab-qacaqdır. Bu da qoxudan durmağa vaxt tapdı,—deyə ana deyinə-deyinə Etibarı qucağına alıb mətbəxə apardı.

Bir az keçməmiş o mətbəxdən qayıdıb Yeganəyə yalvardı:

— Can qızım, bir az bunu saxla, əlimdəki işimi qurtarım.

Yeganə narazı halda mızıldanmağa başladı:

— Bəs mən şəkil çəkməyim?

— Azca, on dəqiqə...

— Yox, istəmirəm.

Aypara Yeganənin bu hərəkətinə lap məəttəl qalmışdı. O, cəld Ədilə xalaya yanaşıb dedi:

— Ver mənə, xala, mən saxlaram.

Aypara, uşağın əlindən tutub yavaş-yavaş otağın yuxarı başında döşəməyə salınmış xalçanın üstünə gətirdi. Ədilə xala Etibarın oyuncaqları yığılmış qutunu da gətirib onların yanında xalçanın üstünə qoydu.

— Al qızım oynat, sən Yeganədən ağıllısan,— deyib Ayparanı təriflədi.

Etibarın oyuncaqlarının çoxusu rezindən idi, basan kimi «cik-cik» cikkildəyirdilər. Aypara oyuncaqları bir-bir düzdü. Sonra barmağını ağzına soxub ona baxan Etibara dedi:

—Tut topu, Etibar, bax belə yerlə diyirlət dəysin bunlara .— Aypara topu Etibara tərəf diyirlətdi.

Etibar topu götürüb yerdə yumaladı. Top diyirlənib qabaqda duran rezin gəlinciyin yanı üstə yerə yıxdı. Gəlincik cikkildədi. Etibar ağappaq inci kimi xırda dişlərini göstərərək güldü. Oyun Etibarın xoşuna gəlmişdi. O, Ayparanın yenidən düzdüyü oyuncaqları topla vurub yıxır, oyuncaqlar

yıxıldıqca Etibar qəhqəhə çəkib gülürdü. Oyun o qədər şirin və maraqla gedirdi ki, Yeganə də əlindəkiləri stolun üstünə atıb onların yanına gəldi.

— Mən də düzüm?—deyə o, Ayparadan soruşdu.

— Bəs anan deyəndə niyə saxlamırdın?

— Onda istəmirdim.

— Heç adam anasının sözündən çıxar? Mən həmişə anama kömək eləyirəm.

— Mən də.

— Yalan deyirsən... Di yaxşı, düz.

İndi Ayparanın əvəzinə Yeganə oyuncaqları düzürdü. Aypara mətbəxə gəldi:

— Xala,—dedi,—dəsmal verin, qabları qurulayım.

— Sağ ol, qızım, lazım deyil, üstünü batırarsan.

— Evdə anam mənə önlük tikib. Anama kömək edəndə onu taxıram. Bəs Yeganəninki yoxdur?

— Əh, o, tənbəlin biridir. Heç Yeganə mənə iş görər? Dərsini yadına salmasam, eləməz...—Ədilə xala sözünün dalını deməyib başını buladı. Aypara qabları quruladıqca evdə gördüyü işlərdən danışırdı:

— Xala, məktəb paltarımı özüm ütüləyirəm, corablarımı, lentlərimi həmişə özüm yuyuram. Evdə dibçəkləri sulamaq mənim işimdir. Anam növbətçi olanda atam gəlincə süfrəni düzəldib yeməyi də atama mən verirəm.

— Xörək bişirmək də bilirsən?—deyə Ədilə xala qızdan soruşdu.

— Qayğanaq bişirirəm,—deyə Aypara fəxrlə gülümsədi.

Yeganə darıxıb mətbəxə gəldi. O, Ayparanın qurulayıb stolun üstünə yığdığı qablara diqqətlə baxdı.

— Ananın nə dərdi, belə ağıllı qızı var,— deyən Ədilə xala işini qurtardı.

Aypara o biri otağa keçdi. Yeganə də onun dalınca qaçdı. O, elə güman etdi ki, Aypara bu biri otaqda oynamaq istəyir. Aypara kitab rəfinin yanına

gəldi. Rəfdəki kitabların çoxu qalın-qalın romanlar idi. Bunları yəqin ki, Yeganənin atası oxuyurdu.

Ədilə xala qızın nə axtardığını soruşdu.

— Xala, mənə elə kitab verin ki, nə çox qalın olsun, nə də nazik,—deyə Aypara nəzakətlə xahiş elədi.

Ədilə xala əyilib kitab rəfinin aşağı gözündən kitab seçməyə başladı. Nəhayət o şəkilli bir kitab çıxartdı. Kitabı görən kimi Aypara təəssüflə dilləndi.

— Onu oxumuşam.

— Bəs bunu?—deyə Ədilə xala ona başqa bir kitab da göstərdi.

— Onu da oxumuşam.

Yeganə Ayparaya baxır və düşünürdü: «Görən yalan demir ki? Nə çox kitab oxuyub».

Ədilə xala üç-dörd başqa kitab da göstərdi. Bunları da Aypara oxumuşdu. Nəhayət, Aypara üçün bir kitab tapdı.

— De görüm bu kitabların hamısı səndə var?— deyə Ədilə xala Ayparadan soruşdu.

— Xeyir, mən kitabxanaya yazılmışam. Ordan alıb oxuyuram.

— Yeganə də kitabxanaya yazılıb.—Birdən Ədilə xalanın yadına nə isə düşmüş kimi Yeganəyə tərəf çevrildi:—Ay qız, yaxşı yadıma düşdü, kitabxanadan gətirdiyin kitabın deyəsən axı vaxtı keçib?

— Yox, hələ vaxtına qalıb,—deyə Yeganə qaçıb kitabı gətirdi.

— Yeganə, bu kitabı oxumusan?—-deyə Ədilə xala ondan soruşdu.

— Oxumuşam.

— A qızım, Aypara, sən də oxumusan?

— Bəli oxumuşam.

— Onda Yeganəyə bir neçə sual ver görək yadında bir şey qalıbmı?!

Yeganə Ayparanın suallarının heç birinə cavab verə bilmədi.

— Ayıb olsun sənə. Sənin yerinə mən utanıram,— deyə Ədilə xala yaman əsəbiləşdi.—Görürsən Ayparanı, o da sənin kimi qızdır, özü də sənin

boydadır. Amma sən gəlin-gəlin oynamaqdan başqa heç nə bilmirsən. Əgər bu danlaqları Ayparaya desəydilər o, üç gün, bəlkə də dörd gün ağlayardı. Heç başını yuxarı qaldıra bilməzdi. Yeganə isə heç kefini də pozmadı. Anası deyinə-deyinə o biri otağa keçən kimi o, gəlib divanın üstündə oturdu, kitab oxuyan Ayparanın paltarını dartışdırmağa başladı:

— Di gəl, oynanq da.

Aypara bir təhər ondan üzülüşmək istədi.

— Dayan da, qoy kitabı oxuyum.

Yeganə onun paltarının yaxasından əl götürmək istəməyib özünə tərəf dartırdı.

— Oynayaq da.

Aypara qıpqırmızı pörtmüşdü, öz sözündən də dönmək fikrində deyildi. Ona görə var gücü ilə ayaqlarını divanın qarşısındakı stolun qıçına dirəyib yerindən tərpənmək istəmirdi.

Birdən nə isə şıqqıltı ilə yerə düşüb diyirləndi. Qızlar dönüb yerə baxdılar. Ayparanın paltarının düyməsi döşəmədə diyirlənib dayandı. Yalnız indi Yeganə onun paltarının açılıb sallanmış yaxasından əl götürdü.

Bu halda rəngi kağız kimi ağarmış Ədilə xala Zeynəb nənə yatan otaqdan çıxıb telefona tərəf yüyürdü.

Qızlar nənə yatan otağa qaçdılar. Çarpayının üstündə çabalayan nənənin rəngi sapsarı saralmışdı. Gözləri dərinə düşmüşdü. O tez-tez ürəyini ovxalayır, boğulurmuş kimi burun pərəklərilə nəfəs alırdı..

Qızlar qorxudan qapının ağzında donub qalmışdılar.

On-on beş dəqiqədən sonra təcili yardıma çağrılan həkim və şəfqət bacısı gəldi. Uşaqlar sivişib qapıdan çıxdılar. Ədilə xala tez-tez mətbəxə qaçır, şüşəyə isti su doldurub otağa qayıdırdı.

Ayparanın nənəyə yaman yazığı gəlirdi.

— Nənən çoxdan yatır?

— Yox, bilirsən, onun ürəyi xəstədir.

— Yazıq nənə.—Aypara kədərlə söyləndi.

Yeganə ona tərəf əyildi, gizli bir şey söyləyirmiş kimi pıçıldadı:

— Aypara, bilirsən nənənin yanında duranda mən nə fikirləşirdim? Fikirləşirdim ki, əgər birdən nənəm ölsə, onda gərək bütün işləri anamla mən görək, əgər anam da ölsə, gərək bütün işləri atamla mən görək. Əgər atam ölsə...

Ədilə xala qapını açdı və Yeganə tez səsini kəsib qorxu ilə ona baxdı.

«Bir gör nə deyir? Nənəm ölsə, anam ölsə, atam ölsə... Vay, vay, vay», deyə fikirləşən Aypara acıqla Yeganəni süzdü.

— Sən nənəni istəmirsən, Yeganə? Sənin ona yazığın gəlmir?

— İstəyirəm,—deyə Yeganə günahgar adamlar kimi udqunub cavab verdi.

Elə bu vaxt Ədilə xala qızlara yanaşdı. Qızlar nənənin halını soruşdular.

— Həkim deyir ki, ürəyi bərk xəstədir. Ona sakitlik, istirahət lazımdır.

—Bu hadisədən yarım ay keçmişdi. Bir gün nahardan sonra yenə də Yeganə Ayparanı həyətə oynamaqa çağırdı.

— Dayan, anamdan soruşum.—deyə Aypara qapını açıq qoşub içəri getdi. Bir azdan paltosunu geyinə- geyinə gəldi. Qızlar tələm-tələsik pilləlləri düşüb həyətə qaçdılar.

Həyətdə, iri şaxlı-budaqlı tut ağacının kölgəsində iki uşaq oynayırdı. Bunlardan biri balaca İlham, o biri Rauf idi. Rauf bir az ondan böyük idi.

Oğlanlar qaçıb gələn qızlara əhəmiyyət vermədilər. Ona görə də qızlar bir yana çəkilib onların oyununa tamaşa eləməyə başladılar.

Dörd-beş yaşlı İlham həyətin o başındakı yasəmən ağacının altına qoyulmuş skamyanın üstündən aşırıldı, bir əli ilə qəzetdən düzəldilmiş başındakı əsgər papağını tuta-tuta qaçıb həyətin o başındakı hasara dırmaşdı. Bərk qaçdığından yamanca töyşüyür, telefon dəstəyini əvəz edən qələmi qulağına tutub qışqıra-qışqıra deyirdi:

— Alo, alo... Kimdir? Alo?..

Danışan ordu generalıdır. Bəli, bəli,—deyə az qala dördüncü mərtəbəyə çatan qollu-budaqlı iri tut ağacının lap alt budağında ayaqlarını aşırıb

arxayınca oturmuş və əyninə çiynində sarı köhnə paqonları olan mixəyi rəngli gen pencək geymiş Rauf qənaətləndirici cavab alınca səbrlə gözləyir, suallarını aramla təkrar edirdi:

—Neçə tankınız var?

— On.

— Neçə təyyarəniz?

— On beş.

Qızlara bu oyun tanış idi, Buna bu həyətdə «komandir» oyunu deyirdilər.

Yeganə qabağa gəldi:

— Biz də oynayırıq.

— Yox, sən cığalsan. Bir şey olmamış ciyildəyəcəksən,—deyə Rauf üzünü ondan çevirib kənara çırt atdı.

İlham da qaşqabağını salladı:

— İstəmirik, oynama. Bir şey olmamış ağlayacaqsan.

Yeganə qəzəbləndi:

— Hm... oynatmırsız, oynatmayın, çox lazımdır, biz də «cızığa girmə» oynayarıq, yox Aypara?

Aypara isə oğlanlarla ümumi dil tapmağa çalışdı.

— Ay uşaqlar, gəlin birlikdə oynayaq, kim bir dəfə cığallıq eləsə, o oynamasın. Yaxşımı?

İlham o dəqiqə razılaşdı:

— Hə, yaxşı, onda gəlin oynayaq.

Rauf sürüşüb ağacdan düşdü; xurmayı saçlı bu qızın yalan deyib-demədiyini sınayırmış kimi diqqətlə onu süzüb soruşdu:

— Yalan demirsən ki? Bax, kim bir dəfə cığallıq eləsə, o oyundan çıxacaq! Razısınız?

— Hə, razıyıq,—deyə qızlar ikisi də birdən səsləndilər.

Yalnız bundan sonra Rauf vəzifələri bölüşdürməyə başladı.

— Biriniz maşınkada əmrləri çap eləyin. Biriniz də hərbi poçtalyon olun. Bəs yazı maşınkası hanı?

Yeganə qaçıb oyancaq qarmonu gətirdi, onu yanı üstə çevirib dillərini taq-tuqla basıb «yazı yazmağa» başladı. «Komandir» oyunu uzun sürmədi. Bir azdan Rauf gedib zirzəmidən şinləri pas atmış köhnə bir velosiped çıxartdı. Bu velosiped Raufun orduda olan böyük qardaşına beş yaşında olarkən alınıbmış. Uşaqlar növbə ilə velosipedi sürməyə başladılar.

O yanda, ağacların dibindəki kölgəlikdə xəstəlikdən yenicə duran Zeynəb nənə oturmuşdu. Əlində nə isə toxuyurdu. Velosipeddə böyük dairə vurmaq üçün həyətin kənarları ilə sürmək lazımdı. Nənənin orada oturması buna imkan vermirdi. Yeganə qaçıb nənəsinin tumanını çəkişdirməyə başladı:

— Dur da, nənə, burdan dur.

— Ay qız, burax ətəyimdən,—deyə nənə ona acıqlandı.

— Dur da, nənə,—deyə Yeganə yenə mızıldanmağa başladı,—dur da, elə bil uşaqdır, həyətdə oturur. Burda biz oynayacağıq.

Yeganə inad etdikcə, nənə daha da hirslənirdi.

— Balam, həyətdə də adamı dinc qoymursan, sən nə təhər uşaqsan?

— Yekə qızsan, elə hər şeydən mızıldanırsan,— deyə Aypara Yeganənin qolundan tutub yana çəkdi: — Utanmırsan, adam nənə ilə o cür danışar? Axı xəstəlikdən təzə durub.

Uşaqlar oyunlarına davam etdilər. Növbə Ayparaya çatanda o velosipedi nənədən xeyli uzaqda saxlayıb mehribanlıqla dedi:

— Zeynəb nənə, əgər mümkündüsə bir az stulunuzu geri çəkin, birdən bilmərəm sizə toxunaram.

Nənə eynəyini qaldırıb bir ayağını velosipedə, bir angını isə yerə dirəyib ona baxan bu ağbəniz, mehriban qızı başdan ayağa süzdü:

— Yaxşı, qızım, sən mənim ağıllı, mə'rifətli balamsan. Bu dəqiqə.—Nənə stulunu geri çəkdi:— Gəl keç qızım, gəl keç, oynayın, mən sizə mane olmaram.

Oyun yaxşı gedirdi. Belə ki, hələ nə dalaşan, nə də cığallıq edən vardı. Növbə ilə əvvəl Rauf (axı, velosipedin sahibi o idi), sonra Yeganə, Aypara, ən axırda da İlham minirdi. Velosiped iki təkərli olduğundan İlham ona hələ o qədər adət etməmişdi. Yenə də İlham öz növbəsində velosipedi sürəndə necə oldusa, həyətin yuxarı tərəfindəki dikdirdə velosiped aşdı və İlham yanı üstə yerə dəydi.

Uşaqlar tez onu qaldırdılar. Toza bulaşmış üst-başını çırpdılar. O, ağlamağını güclə saxlayırdı.

— Gülər xala, ay Gülər xala, İlham yıxıldı,— deyə Yeganə həyətin ortasında dayanıb haraylamağa başladı.

İlhamın anası tələsik bayıra çıxdı. İri güllü bamazi xalatının enli ətəklərini yellədə-yellədə qaçıb gəldi. İlhamın əlinə, ayağına baxdı, heç yeri sıyrılmamışdı, ona acıqlanmağa başladı:

— Ədə, qorxmursan, yıxılıb baş-gözünü əzəsən? Axı, sən velosiped sürməyi nə bilirsən?..

İlham başını aşağı əyib bu danlaqları səbrlə dinləyirdi.

Zeynəb nənə dedi:

— Ay Gülər, uşaq yıxıla-yıxıla böyüyər, yaxşı, az danla, apar əynini dəyişdir, üz-gözünü yu.

Gülər bacı birdən yanında dayanıb ona baxan gülümsər sifətli Raufu gördü, zarafatla onu hədələdi:

— Ay şeytan, bu işlərin başı tamam sənsən.

Zeynəb nənə Gülərə nə isə işarə edib dedi:

— Ay bala, yenə yaxşı qurtardı. İlham ağıllı baladır, heç ağlamadı da. Yoxsa bizim Yeganə olsaydı, indi hamı bir-birinə dəymişdi.

İlham yıxılandan sonra, Rauf velosipedi götürüb zirzəmiyə atdı və «əlim səndə» oynamağı təklif elədi. Oyuna təzə başlamışdılar ki, birdən necə oldusa, Yeganə «korluğu» zamanı Raufun dalınca qaçarkən sürüşüb üzü üstə yerə dəydi. Bir anın içində vəziyyət dəyişildi. Yeganə qalxıb bir qara-qışqırıqla ağlamağa başladı ki, uşaqlar bilmədilər nə etsinlər.

Üçüncü mərtəbənin mənzillərindən birinin pəncərəsi şaraqqıltı ilə açıldı, Ədilə xalanın başı göründü.

— Nə olub, Yeganə?

— Rauf məni yıxdı,—deyərək Yeganə hönkürə- hönkürə ağlayırdı.

— Bu Rauf da yekə oğlandır, amma həmişə səni ağladır. A başınıza dönüm, hara çıxaq, gedək bu uşaqların əlindən.

Aypara, Yeganənin yalan deməyinə heyrət elədi. Raufa yazığı gəldi. Odur ki, dözməyib dedi:

— Ədilə xala, Yeganə yalan deyir, özü yıxıldı, Rauf ona heç toxunmadı da.

Rauf da kənarda dayanıb tez-tez deyirdi:

— Mən ona heç dəymədim, özü yıxıldı. Mən ona heç dəymədim...

— A bala, Yeganə həmişənin yalançısıdır. Özü yıxılıb, nahaqdan uşağın boynuna qoyur,—deyə Zeynəb nənə üçüncü mərtəbənin pəncərəsindən baxan gəlini Ədiləyə başa saldı.

— Mən yıxmadım, mən yıxmadım...—deyə Rauf hey mızıldanırdı.

Bu vaxt Yeganə hücum çəkib qışqıra-qışqıra Raufun üstünə atıldı, əlləri, anaları ilə onu vurmağa başladı ki, sən yalan deyirsən, mən yox.

Zeynəb nənə irəli gəldi, onun qolundan tutub kənara çəkdi:

— Ay qız, uşağı niyə döyürsən, ay şərçi. Bəsdir, ulama, sənin səsindən hara köçək? Başım ağrıyır, xəstəyəm, axı.

— Xəstəyəm, xəstəyəm, neyləyim xəstəsən, həyətdə oynamancağam?—deyə Yeganə bir-birinin ardınca sözləri yağdırmağa başladı.

Ədilə xala həyətə düşdü, səsə Ayna xala da gəldi.

Ayna xala dedi:

— Ay qız, bəsdir, adam böyüklə dilləşməz...

—Hə, dilləşməz... hamı da mənə acıqlanır.— Ədilə xala həyətə düşdü, səsə Ayna xala da gəldi.

Ayna xala dedi:



— Ay qız, bəsdir, adam böyüklə dilləşməz...

— Hə, dilləşməz... hamı da mənə acıqlanır.— Yeganə bir az da ucadan ağlamağa başladı.

Ədilə xala Yeganəyə bərk acıqlandı.

— Əh, ay qızım Ədilə, hirslənmə, onun xasiyyətini ki, bilirsən, birini deyərsən, beşini eşidərsən,—deyə Zeynəb nənə şikayətləndi.

Ayna xala heyrətini gizlədə bilmədi:

— hələ yadıma gəlmir ki, Aypara özündən böyüklə dilləşsin. Kiçik olanda bir-iki dəfə qonşunun uşağı ilə dalaşıb üstümə ağlaya-ağlaya gəldi. Qonşu qız daşla vurub başını şişirtmişdi. Nə qədər ağladı, getmədim, dedim niyə gedib davyan qoşulursan ki, başını vurub şişirdirlər. Odur ki, heç bir uşaqla dalaşmaz.

Aypara fəxr edirmiş kimi gedib ona sığındı. O, anasının yanaqlarının utancaqlıqdanmı, ya fərəhdənmi qızardığını gördü.

— Tərbiyəli, sakit uşaq görəndə ağlım gedir. Bilmirəm bu qız qaraçılıqda kimə oxşadı.—deyə Ədilə xala dilləndi.

Aypara ömründə bu qədər tə'riflənməmişdi. Bir də axı, o nə üçün tə'riflənirdi? O ki, bir igidlik göstərməmişdi. heç nə! Bəs niyə? Məgər bütün uşaqlar da onun kimi deyilmi? Elə o İlham, o Rauf... Aypara Yeganəyə baxdı. Yox, o heç Yeganəyə oxşayırmı? O heç böyüklə dilləşərmi? Anasının sözündən çıxarmı? Yox, Yox! heç vaxt!

Nənə Yeganə tərəfə işarə elədi:

— Dad belə uşaqdan. Amma onu deyim ki, uşağı korlayan ata-ana özü olur. Onda ki, uşağın ağzından nə çıxdı onu elədin, uşağın evini yıxdın. Mən həmişə deyirdim ki, ay bala, bunun nazıyla az oyna öhdəsindən gələ bilməyəcəksən. Deyirdin böyüyəndə özü başa düşəcək. A balam, uşağın uşaq danışığı olar, uşaq yeri olar...

Nənənin söhbətini dinləyən Aypara qəribə fikirlərə düşmüşdü. Bu vaxta kimi o, elə bilirdi ki, bütün uşaqların anası bir xasiyyətdə olur. Ayrı cür də ola bilməz. Çünki onlar anadır, axı. İndi isə başa düşdü ki, yox, nə isə anası

ilə Ədilə xalanın arasında fərq var. Bu fərqin nə olduğunu isə o aydın dərk edə bilmirdi.

Aypara bir şeyi də özlüyündə həll edə bilmirdi. Bəs Yeganə yalançılığın, cığallığın pis olduğunu özü başa düşmür? Nə üçün o böyüklərlə, zeə nənəsilə hörmətsiz, kobud danışır? Anasına qətiyyən kömək etmək istəmir? hələ kitab! Ən maraqlı iş olan kitab oxumağı da sevmir? Niyə?

Aypara ağaca söykənib ona acıqlı-acıqlı baxan Yeganənin gözlərində bu suallara cavab tapmaq istəyirdi.

Yeganə isə özlüyündə Ayparaya baxıb hirslə fikirləşirdi: gör özünü necə çəkir. Elə eləyir ki, nənəm də, anam da—hamı onu tə'rifləsin. hm... forslunun biri...

Əslində isə Aypara Yeganə düşünən kimi özünü göstərmək, təriflənmək fikrində deyildi. O, sadəcə olaraq tərbiyəli və mehriban bir qız kimi böyüyürdü...



## D Ə C Ə L   F Ə R Ə

Darvazanın kiçik qapısı cırıltı ilə açıldı. «Görən kimdir gələn?»—deyə eyvanda gəlinciylə oynayan Şəfəq pilləkən başına qaçdı.

Nənə əlində ağzına kimi dolu zənbil bazar dangəlirdi. O, sürahidən yapışıb ona tərəf boylanan nəvəsini görüb gülümsədi:

— Nənə balası, bu çil fərəni sənə almışam,ba-ax,—deyə ayaqları cüt qoyulub iplə zənbilin dəstəsinə sarınmış fərəni açıb, sement pilləkənə qoydu.

Şəfəq sevindiyindən əvvəl əl çalıb şadlıqla güldü. Sonra yüyürüb fərənin yanına gəldi.

Fərə elə qəşəng idi ki... Şəfəq, yanı üstə yatıb boynunu qabağa uzadan bu ağ fərənin əvvəl xırdaca qırmızı pipiyini, sonra üstündə qara-qara xalları olan ağ yaraşıqlı qanadlarını sığalladı.

- Ca-an cücə... ay cücə...

Birdən qız içini çəkdi:

- Nənə, ay nənə...

Zənbili yanına qoyub eyvandakı döşəkcəyə oturmuş nənə tərdən islanıb alnına, boynuna yapışmış saçlarını əlindəki yaylıqla qurulayır, bir əliylə də sərinləmək üçün köynəyini yelləyirdi. Nənə deyəsən, onun səsini eşitmədi. O, həyətdəki hovuza şırıltı ilə tökülüb köpüklənən suya, hovuzun üstündə budaqları az qala suya toxunan alma ağacının yüngül mehdən titrəşən yaşıl yarpaqlarına baxıb deyirdi:

— Oxqay, nə yaxşı sərin gəlir. Yolun, bazarın cəhənnəm kimi istisi hara, ev-eşiyin bu sərinliyi hara.

Nənəsinin fərədən yox, başqa şeylərdən danışması qızcığazı yaman darıxdırdı. O, burnunu qırışdırıb ağlamsındı:

— Qanıyıb ey, nənə, yazıq cücənin qıçları qanıyıb...

— Qorxma qızım, heç nə olmaz,—deyə nənə nəvəsini ürəkləndirdi. Nənə evdən qayçı götürüb pillələri düşdü. Fərənin ayaqlarına bərk-bərk bağlanmış vişi kəsdi. Fərə yerindən tərpənmirdi. Yəqin elə bilirdi ki, ayaqları bağlıdır. Nənə onu ayaq üstə qaldırdı. Bir qıçına boşaraq bir ip bağlayıb çağa keçirdi. Sonra Şəfəqə tərəf çevrilib dedi:

— Qızım,g et evdən bir az çörək gətir, heyvan acdır, qabağına tökək.

Şəfəq tələsə-tələsə pillələrdən çıxıb çörək dalınca getdi. O gəlincə nənə də hindən köhnə bir qab tapdı, hovuza basıb doldurdu, sonra gətirib fərənin qabağına qoydu.

Bu gündən Şəfəq çil fərəyə elə öyrəşdi ki, heç onun yanından başqa yerə getmək istəmirdi. O, nənəsinin alt evə qoyduğu torbadakı arpanı ovuclayır, gətirib çil fərənin qabağına tökür, onun, arpanı bircə-bircə dənləməsinə maraqla baxır və arabir də «cib-cib mənim cücəm, cib-cib mənim cücəm» deyə cinkiltili səslə oxuyurdu.

Nənə bağçada dirrik düzəltmişdi. həyətin ortasından keçən arxdan ta qoşa zoğal ağacına kimi olan sahədə soğan, keşniş, badımcan, pamidor əkmişdi. Bağçanın lap o tərəfindəki açıqlıqda, ağacların seyrək yerində isə şaxlara sarışan lobya lifləri salxım-salxım tökmüşdü.

Çağ boyu düzülən dibçəklərdə cürbəcür çiçəklər açmışdı. Bunların hamısına nənə özü qulluq edirdi. Səhər tezdən, Şəfəq şirin yuxuda olanda nənə enli tumanının ətəyini belinə sancıb, kürəklə arxın ağzını ləklərə açır, ləklər sulandıqdan sonra isə, hələ gün çırtlamamış lüleyinlə dibçəkləri sulayırdı.

Dirriyin dərdindən nənə bütün toyuq-cücəni hində saxlayırdı. Təkcə axşam üstü hinin qapılarını taybatay açar, onları bayıra buraxardı.

Axı, toyuaqlara da hava, gəzinti lazımdır!

Şəfəq onlara lap təəccüb edirdi. Toyuq-cücə hinə elə öyrəşmişdi ki, «kiş» eləyən kimi hamısı qaçıb içəri girirdi.

Nənə Şəfəqin də çil fərəsini hinə salmaq istədi. Şəfəq ağlayıb yalvardı.

— Can nənə, qoy eşikdə qalsın, o yekə, saqqallı xoruz onu orda döyüb öldürər.

Nənə nəvəsinin sözünü yerə salmadı. Çil fərə bağ-bağçada qalası oldu.

Bircə günün içərisində çil fərə həyət-bacaya öyrəşdi. Nənə onun ayağındakı uzun ipi də açdı. İndi bütün günü çil fərə dir-dirriyin, göy otluğun, çəpər dibindəki zibilliyin içərisində eşələnir, iri armud ağacının dəyib altına tökülən sulu, şirin meyvələrini dimdikləyirdi.

Axşam bağ-bağçaya qaranlıq çökəndə, zivanın işığı yandırılıb, ailə samavarın başına toplaşaraq çay içməyə oturanda, çil fərə də yatmağa yer seçirdi. O, anyalarını cütləyib hovuzun kənarına tullanır, boynunu uzadıb başını yana əyir, elə bil ki, hovuzun üstünə əyilən alma ağacının budağına qədər olan məsafəni əvvəl gözəyarı ölçür, sonra ucadan qaqqıldayaraq bir sıçrayışda budağa atılırdı. Elə ki, yerini rahatladı, qıçlarını qatlayıb xallı qanadlarını yığaraq gözlərini yumurdu. Alma ağacının budağı isə uzun müddət enib-qalxır, yırğalanırdı...



Çil fərə gündən-günə qəşəngləşir, böyüyür, böyüdükcə də dəcəlləşirdi. O, nənənənin «gəh-gəhi- nə», nə də Şəfəqin «cib-cibinə» qaçıb gəlmir, adama acıq verirmiş kimi qayğısız bir halda otluqda eşələnir, hərdən də otların başına qonan xırda böcək və ya  milçəkləri dimdiyilə tutanda kefi lap kökəlir, öz incə səsilə şən-şən qığıldayırdı:

— Qı... qı... qı... qı...

Çil fərə Şəfəqin ovuc-ovuc tökdüyü arpanı say salmırdı. Bir də görürdün ilim-ilim itirdi. De gəl, onu dizə qədər otların, sıx nar kollarının, ya pöhrənli lobyalığın arasında tap! Bu dəcəl fərə heç başa düşmürdü ki, axı o, Şəfəqi nə qədər incidir. Onu axtara-axtara Şəfəqi nə qədər cincar dalayır, çılpaq alyaları qızarır, şişir, qaşınır, yanır... Əlinə tikan batır, paltarını kol cırır.

Bir də görürdün gözü o kolun, bu çəpərin dibində qalan Şəfəqin ayağı sürüşüb arxın palçıqlı suya düşdü.

Üst-başı palçığa, suya batmış Şəfəqin paltarını dəyişdirən anası qəzəblə deyinirdi:

— Bircə tapılsın o çər dəymiş,gör onun başını kəsdirirəm ya yox!

Nənə də o fikrə gəlirdi. Amma Şəfəq! O acı- acı ağlayır, çil fərənin kəsilməsinə heç cür razı olmurdu.

— Yox, Yox! Axı o yazıqdır?!

Bu «yazıq» fərə isə gündə min on çıxarırdı. O, nənəyə indi əməlli-başlı «ziyan» vururdu. Eyvanın qabağına tökülmüş arpa, çörək qırıntıları yaığlanıb qalır, o isə kalına, dəymişinə baxmır, bütün pamidorları tağlarının üstündəcə didir, tökür, keşniş, şüyüt ləklərini eşir, göy lobyları dimdikləyirdi. Elə səhərdən axşama kimi nənə onun əlindən: «Vay aman, qıçı sınmış, şüyüdü eşdi- tökdü», «Ay balam pamidorları zay elədi ki, bu?!» deyə şikayətlənirdi. Bir sözlə nənə onun əlindən yaman acıqlanmışdı, bircə Şəfəqin ağlaması nənənin qabağını kəsirdi. Yoxsa fərənin ya başını kəsərdi, ya da ki, onu hinə salardı. Bu axmaq fərə isə heç nə başa düşmək istəmirdi. Ələ öz bildiyində idi.

Fərə pilləkənin qabağındakı çiçəkliyə eşələnməyə gələndə Şəfəq həmişəki kimi yenə ona öyüd nəsihət verməyə başladı:

— Sən nə pis cücəsən? heç adam da nənəni incidər? Axı o qocadır! Utanmırsan? Axı daha yekəsən!— Sonra Şəfəq totuq əllərini havada yellədi, fərəyə əməlli-başlı acıqlandı:—Pamidorların hamısını xarab eləyirsən, elə yerdə kizlənirsən ki, heç səni tapmaq olmur. Nə var, üzümə nə baxırsan? Lap xarab olmusan.—Şəfəq bir azdan hədəyə keçdi:—Bax, yaxşı ol, ağıllı ol. Nənəyə, mənə qulaq as, eşitdin? Yoxsa səni kəsib bişirərlər, ay gic... Şəfəq yorulub köksünü ötürdü. Fərə isə «qığ-qığ» qığıldayıb ayaqları ilə torpağı yenidən eşir, çiçəkləri kökündən çıxarıb dimdikləyirdi.

O, nəinki ağıllandı, hətta yarımca saat keçməmiş həyət-bacadan büsbütün yox oldu. Şəfəq axşama kimi gəzdi. Fərə tapılmadı. Axşam nənə də bağçanı neçə dəfə dolandı, su bərəsini, ot tayasının dalını, nar kolunun dibini yoxladı. Fərə tapılmadı ki, tapılmadı.

Nənənin də, Şəfəqin də əli hər yerdən üzüldü. Bəlkə yola qaçıb deyə, küçəyə çıxdılar. Qonum-qonşudan soruşdular.

Çil fərəni gördüm deyən olmadı.

Qaş qaraldı, gecənin zülmət qaranlığı hər tərəfi bürüdü. «Yazıq cücəm, indi qaranlıqda qorxacaq», deyib Şəfəq ağladı.

— Elə dəcəl fərəyə o da azdır,—deyə nənə heç fərəyə heyfslənmədi də. Axı, o, nənəni çox incitmişdi. Fərəni axtarmağa getməsi də Şəfəqə görə idi.

Səhər-səhər Şəfəq armud yığmağa bağçan düşəndə çil fərəni damın qabağındakı daşlıqda gördü. Nənə yavaş-yavaş gəlib fərəni hinə saldı. Hinin qapısını bağlayıb evə gəldi, bir qayçı götürüb geri qayıtdı. Fərənin xallı qanadlarını kəsdi. Onun ayağına uzun bir ip bağladı. İndi fərə hara qaçsa, onu tutmaq asan olardı. Fərə dartınır, çevrilib bir Şəfəqə, bir də ayağına baxır, sonra ayağındakı ipi dimdikləyirdi. Elə bil ki, bununla demək istəyirdi: «Şəfəq, nə olar, aç ipi».

— Yox, sənə belə lazımdır, nadinclik eləməyəydin,—Şəfəq ona acıq verirdi.—Sözə baxaydın!

Ertəsi gün elə bir hadisə üz verdi ki, nənə fərənin qanadlarını kəsməsinə, Şəfəq isə ona acıqlanmasına lap peşman oldu; bir sözlə dəcəl fərəyə hamının yazığı gəldi. Həmin gün Şəfəq ata-anasıyla bazara getmişdi. Nənə də təndir başında çörək yapırdı. Çil fərə gəzə-gəzə gəlib hovuzun kənarına çıxdı. Atılıb alma ağacına çıxmaq istəyirdi ki, birdən şarappıltıyla hovuza düşdü, ha çabaladı, ha vurnuxdu, hovuzun qırağına çıxa bilmədi, axırda lap əldən düşdü...

Bir azdan nənə təndirxanadan çıxıb lüleyinə su tökmək üçün hovuz başına gəldi. Bir də gördü ki, hovuzun içində nə isə üzür. Əvvəl elə bildi ki, bu şirə dərisidir, kimsə çağın başından götürüb suya atmışdır. Diqqətlə baxdı və çil fərəni tanıdı. Cəld əlini atıb onu sudan çıxartdı, başıaşağı salladı. Onun kəsik qanadları havada çətir kimi açıldı, fərədən süzülən su daş döşəməni islatdı.

— Dəcəlliyin öz başını yedi,—deyə nənə fərəni yerə qoydu.

Şəfəq bazardan gəldi. O, dəcəl fərənin belə dinməzcə fərşin üstündə düşüb qalmasına heç cür inana bilmirdi. Şəfəq bazara getməyinə indi o qədər peşman idi ki...

— Yazıq fərə, yazıq fərə... Necə də qəşəng idi. Yəqin ki, suya düşəndə çox çabalayıbsan. Kaş mən heç yerə getməyəydim. Onda sənin səsini eşidib tez yanına qaçardım. Səni sudan çıxardardım. Yazıq fərə...—deyə mızıldanır və hey fərənin yanında fırlanırdı. Şəfəq onun dirilməyini, gözlərini açıb ayağa durmağını gözlədi. Amma fərə tərpənmədi.

Elə bir neçə saat evdə söhbət çil fərədən getdi. Nədənsə, onun suda boğulmağı hamıya—nənəyə də, anaya da, ataya da təsir eləmişdi. Hələ Şəfəq! O dodaqlarını büzüb, ağlamağını güclə saxlayır, tez- tez nənəsindən soruşurdu:

— Bəs nənə, ay nənə...

— Nədir evim-eşiyim?

— Bəs nənə, cücə qışqıranda eşitmədin? Bəs sən hardaydın ki, nənə?

— A bala, təndir başında çörək yapırdım. Heç səsini eşitməmişəm. Səndən sonra axtardım ki, dən töküm qabağına. Bilmirsən xasiyyətini, ilim-ilim itmişdi. Axırı da ki, belə...

Nənə həyətə düşüb fərənin ayaqlarından yapışdı və bağçanın o başına—çay tərəfdəki çəpərin o tərəfinə atdı.

Bəli, günortaya yaxın Şəfəqgildə yeni bir hadisə baş verməsəydi, dəcəl fərə haqqındakı hekayəmiz elə burada bitərdi...

Günortanın qızmar vaxtı idi. Nənə badyadakı ayrana xiyar doğrayır, ana stolun üstünə boşqab, qaşıq qoyurdu. Şəfəq isə nənənin dizinin dibində oturub badyadakı ayrana, narın doğranmış göyərtiyə gözlərini zilləsə də çil fərəni düşünürdü.

— Gövhər nənə, ay Gövhər nənə, huy...

Nənəni küçədən harayladılar. O, oturduğu yerdəcə hay verdi:

— Nədi, ay bala?..

Darvazanın kiçik qapısı güclə açıldı. Bir uşaq başını içəriyə soxdu. Bu qonşunun oğlu idi.

— Gövhər nənə, bir toyuğunuz çəpərdən aşıb çayın qırağında valay vura-vura gəzirdi. Eldar tutub, odur ey, gətirir.

Yəqin hinin qapısı aralı qalıb toyuqlardan biri çıxıb, deyən nənə yerindən qalxdı.

— Gövhər nənə, toyuq elə bil piyandır,—deyə Eldar ona yaxınlaşdı və toyuğu gətirib pilləkənə qoydu.

Nənə yerindəcə donub qaldı. Şəfəq fərəni görən kimi tanıdı, sevindiyindən bərk qışqırdı.

— Dirilib, cücəm dirilib, ay can.—O şadlıqla atılıb-düşür, əl çalırdı.

Çil fərə taqətsiz halda yerdə yatırdı. O hərdən közlərini açıb baxırdı. Elə bil qoxulayırdı.

— Ca-an cücəm... ca-an cücəm.—Şəfəq onu oxşadı, sonra «kiş, kiş» deyə fərəni qovdu. Fərə ayağa durdu, bir-iki addım atıb, təzədən yanı üstə yıxıldı, gözlərini yumdu.

Şəfəq fərəyə çörək, su daşıdıqca nənə alçaqdan deyinirdi:

— Ay bala, incitmə, görürsən ki, halsızdır.

Ancaq Şəfəq heç kəsə qulaq asmır, heç kimə baxmır, hey fərəni tumarlayıb deyirdi:

— Cücə, təqsir özündə oldu, nadinclik eləməsəydin, nənə də qanadını kəsməzdi. Daha nənəni incitməyəcəksən ki, hə? Bu sənə dərs olsun. Cücə, yaxşı ki, dirildin. Birdən dirilməsəydin, mən neynərdim...

Bu hadisədən xeyli vaxt keçdi. Artıq çil fərə iri, ağ qanadlarında qara xalları olan qəşəng bir toyuq olmuşdu. Əlbəttə, Şəfəq üçün o cür qaçmış fərənin dirilməsi çox qəribə və təəccüblüydü. Amma nənə düşünürdü ki, yəqin fərə huşunu itirmiş, sonra çaylaqda gün dəydikcə qızışıb ayılmışdı.

Lakin hamısından təəccüblüsü elə dəcəl fərənin ağıllanmasıydı. Nənənin və Şəfəqin deməyinə görə, çil fərə hovuza düşəndən sonra dəcəlliyini yerə qoymuşdu.

Nənə o biri toyuqlar kimi bunu da hində saxlayır, o, daha çəpərləri aşıb qonşu bağçalara keçmirdi. Bütün toyuq-cücələrə verilən ümumi yeməkdən yeyir, ümumi qabdan su içir. Şəfəq indi çil fərəni yemləmək üçün dən dalınca qaçmır.

Deməli belə...

Dəcəl fərə ağıllanıbsa, lap yaxşı...



## N O B A R   H E Y V A

Baba bağçanın ortasından keçən dərin el arxının kənarında, düz eyvanın qabağında heyva ağacı
əkmişdi. Ağac ildən-ilə böyüyür, qol-budaq atır,elə bil yan-yörəsində meyvələrin çoxluğundan budaqları aşağı əyilən başqa qonşu ağaclara çatmaq, bəlkə də onları ötmək istəyirdi.

Qar əriyib, bahar yelləri ağacların arasında əsdikcə, başqa ağaclarla birgə bu cavan heyva ağacı da tumurcuqlanmağa başladı. Alma, armud, zoğal,çiçəkləyib, bağça yaşıllığa bürünəndə cavan heyva da birinci dəfə olaraq çiçəklədi. Baba bağçadakı bu cavan heyva ağacı ilə daha çox maraqlanırdı. Bir dəfə o, cavan heyvanın çəhrayı rəngli iri, gözəl çiçəklərini nəvəsi Akifə göstərib dedi:

— Ay bala, görürsən necə çox çiçək açıb?

— Baba, elə tək bu heyva açmayıb ki, odur ey, alma, armud...

Baba Akifin başını tumarladı.

— Oğul, onların meyvəsini hər il görürük. Amma bu heyva birinci ildir, bara girir. Ona görə bunun gözəlliyi ayrıdır.

Meyvələrin belə gözəl çiçəklədiyi günlərin birində birdən-birə hava soyudu, bərk külək əsdi, yağış səpələdi. hətta dolu da tökdü.

Baba evin pəncərəsindən həyətə baxa-baxa heyfsləndi:

— Zəhirmara qalasan, elə bil qış dala qayıdıb. Mer-meyvə qoymancaq ki...

Ertəsi gün yenə bahar günəşi boylandı, axşamkı yağışdan yuyulub təmizlənmiş yaşıl otların üstündəki damlalar almas kimi parıldadı.

Akif həyətə çıxanda babasını arxın qırağında, heyva ağacının yanında gördü. Babanın qanı yaman qaralmışdı. heyva ağacının altı çəhrayı çiçəklə doluydu. Ağacda bir neçə çiçək qalmışdı...

Günlər gəlib keçir, havalar daha da istiləşirdi. Cavan heyvanın yuxarı qalxan şümal budağında da bir heyva gündən-günə iriləşir, yetişirdi. Nədənsə bu heyva Akifin heç cür yadından çıxmırdı.

O, əlində alma yeyib, heyvaya baxırdı. Ciblərinə dəyib lalıxlayan zoğal doldurub heyvanı düşünürdü.

Görəsən necə dadır? Turşdur, yoxsa şirin? Nədənsə arxın kənarından bir az o yanda, çəpərin üstünə əyilmiş iri heyva ağacı onu heç maraqlandırmırdı.

Axı, Akif o heyvanın dadını da, adını da yaxşı bilirdi. Ona «vələçin» heyva deyirdilər. Bir də ki, heyva meyvələrin hamısından sonra dəyirdi. Ona görə də heyva onun heç yadına da düşmürdü.

Amma bu cavan heyvanın bircə meyvəsi Akifə rahatlıq vermirdi. Neçə gün idi ki, o gah eyvanda durub gözlərini, üstünün tükü tökülməkdə olan bu iri heyvaya dikir, gah da arxda ayağını yumaq bəhanəsi ilə ağacın altında oturur, ayaqlarını suya salıb şappıldadır və altdan yuxarı iri, qəşəng meyvəyə marıtdayırdı.

Bir dəfə səhər çay içəndə baba nənəyə baxıb dedi:

— Arvad, heyvalar indi dəyməz ki?

Nənə babanın sözünə lap təəccübləndi:

— Sən nə danışırsan, kişi, indi heç heyva dəyən vaxtdır?

Akif babanın sözündən heç nə başa düşmədi. Baba yenə üzünü nənəyə tutdu:

— Arvad, arxın qırağındakı cavan heyva var ha?

Nənə babaya əyri-əyri baxdı.

— hə, nə olsun.

— heç nə, deyirəm, qoy əməlli-başlı dəysin görək...

— Dəysin də, qabağında duran kimdir ki?

— Deyirəm görək, meyvəsi nə təhər olacaq.

Baba bu sözlərlə Akifi başa salmaq istəyirdi ki, nobar meyvəni tək yeməzlər, yetişdirib hamılıqda yeyərlər. Axı, bu ayın axırında Akifin atasylə anası mə'zuniyyətə kəndə gələcəkdilər.

Akif o gündən çalışırdı ki, heyvaya baxmasın.

Bir gün baba bazara getmişdi. Akif alma ağacının budağında oturub eyvana baxırdı. Deyəsən nənə də evdə yox idi. «Anaş toyuq» da eyvanda arxayın- arxayın gəzir, hərdənbir dimdiyi ilə döşəməni taqqıldadırdı. Nənə evdə olsaydı, toyuğun qoparağını çoxdan götürmüşdü. Axı, toyuqlar təmiz, çirkli yer seçmir, elə harda gəzsələr oranı batırırlar.

Akif budaqları aralayıb günün şüası altında parıldayan cavan heyva ağacının gümüşü-yaşıl yarpaqları arasından görünən heyvaya baxdı. Onun ağzı sulandı, istədi nobar heyvanı dərib yesin ki, dadını bilsin. Öz-özünə fikirləşdi: «Görəsən dərsəm necə olar? Baba bilməz ki? Əh, hardan bilir, deyərəm ki, mən dərməmişəm».

— Elə bu vaxt üzümlükdən nənənin səsi gəldi.

A... kif, A... kif... huy...

Akif cınqırını da çıxartmadı, Nənə bir-iki ağız da nəvəsini ucadan çağırıb deyindi:



— Lazım olanda tapılmaz ki!.. Amma de gəl, lazım olmasın, elə hey əl-ayağa dolaşar.

«Yəqin qora dənləmək lazımdır», deyə Akif öz-özünə düşündü.

Akif sürüşüb alma ağacından düşdü.

Asta-asta yeriyib çəpərin üstünə əyilmiş "vələçin" heyvanın alt budağından tələsik bir heyva qopartdı. Gətirib cavan heyva ağacının altına, şumal budağın üstündəki heyvanın tuşunda yerə qoydu.

"İndi baba elə bilər ki, külək heyvanı vurub salıb".

Bu fikirlə o, lobyalıqdan bir ağac şaxı çəkdi. Ürəyi bərk-bərk döyünür, əlləri əsirdi. Birdən baba, ya nənə gəlib üstünə çıxdı? Onda nə edər?

Bu fikirlərlə Akif şaxı budağa tərəf uzatdı, haçalı ucunu saralmaqda olan heyvanın saplağına ilişdirdi.

Akif saplağı o tərəfə, bu tərəfə o qədər dartışdırdı ki, heyva tappıltı ilə yerə düşdü. Akif şaxı yenə əvvəlki yerinə basdırdı, sonra heyvanı köynəyin içinə salıb evin dalına götürüldü…

Bu hadisədən bir neçə gün keçdi. Baba deyəsən, yenə də bazara tələsirdi. O, eyvanın altında dayanıb Akifi evə zənbil dalınca göndərdi. Sonra tez papağını, toqqasını düzəldib darvazaya tərəf yönəldi. Birdən baba vacib və tələsən adamlar kimi geri çevrilib Akifi harayladı:

-Ay bala, ay Akif bir bura bax görüm.

Akif yürüyüb pillələrdən düşdü.

-Ay bala bu cavan heyva turşdu, şirin?

Birdən verilən suala fikirləşməyə belə imkan tapmayan Akif tələsik cavab Verdi:

-Turşməzə

Baba yenə mehribanlıqla soruşdu:

-Şirin deyil ki?

-Xeyir baba!

-Bərkdir, yumşaq?

-Yumşaq.

-Hm…-deyə baba acıqlı halda qaşlarını çatdı.-Mən sənə demişdim axı, o heyvaya dəymə, nobardır…

Akifin üzünə elə bil birdən-birə bərk sillə vurdular. Pul kimi qızarıb pörtdü, başını aşağı salıb mızıldandı:

-Baba, mənim xəbərim yoxdur…

-Bəs xəbərin yoxdur, nə bilirsən turşdur, şirindir, ya turşməzədir, hə? Demək, ağacın altına ayrı heyva qoymaqla məni aldatmaq istəyirdin, eləmi?- deyə baba hirsli zənbilini yelləyib həyətdən çıxdı.

Yəqin ki, babanı nobar heyvanın yeyilməsindən çox Akifin qurduğu kələk yandırırdı.

Akif yerindəcə donmuşdu, alnından muncuq-muncuq tər süzülürdü, köynəyi islanıb bədəninə yapışmışdı.

Yeddi illik həyatında tamahı ucundan Akifi birinci dəfə idi ki, xəcalət təri basırdı…

# KİTABIN İÇİNDƏKİLƏR

**İki qız .......................................................... 3**

**Dəcəl fərə…………………………………… 27**

**Nobar heyva ...................................................... 39**

Redaktoru *G. Həsənzadə*

Rəssamı *R. Mehdiyev*

Bədii redaktoru *Y. Ağayev*

Tex. redaktoru *V. Avadeyev*

Korrektoru. *Ə. Ağayev*

Çapa imzalanmış 8/VIII 1958-ci il.

Formatı 60X84 $^{1}/18$ — 1,5 = 2,73 c.v

Uç.-nəşr 2. Tirajı 10000. FQ 15800.

Sifariş 374. Qiyməti 75 qəp.

Uşaqgəncnəşr. Bakı, Fioletov küçəsi, 8.

Azərbaycan SSR Mədəniyyət Nazirliyinin
„ Qızıl Şərq“ mətbəəsi.
Bakı, Həzi Aslanov küçəsi, 80